*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 avqust 2020-ci il № 49 (2467) Qiyməti 30 qəpik

# Prezident İlham Əliyev Türkiyənin Milli Müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 13-də ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarı, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Güleri, Türkiyə Respublikasının Quru Qoşunları komandanı, ordu generalı Ümit Dündarı, Türkiyə Respublikasının Hərbi Hava Qüvvələri komandanı, ordu generalı Hasan Küçükakyüzü, Türkiyə Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı, donanma admiralı Adnan Özbalı və hərbi nümayəndə heyətinin digər üzvlərini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı səfiri Erkan Özoral da iştirak edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

- Hörmətli cənab nazir, hörmətli qonaqlar.

Mən sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Bu gün Türkiyə-Azərbaycan birgə hərbi təlimlərinin son günüdür. Hərbi təlimlərin birinci mərhələsi başa çatır. Bu, çox əlamətdar hadisədir, bizim birliyimizi, qardaşlığımızı bir daha göstərir. Bir neçə gün ərzində ölkəmizin müxtəlif şəhərlərində təlimlər keçirilir. Həm hərbi əməkdaşlıq baxımından bu təlimlərin çox böyük önəmi var, eyni zamanda, insanlar arasındakı əlaqələrin, xalqlar arasındakı qardaşlığın gücləndirilməsi üçün təlimlərin çox böyük əhəmiyyəti və faydası var. Bu, bir ənənədir. Bildiyiniz kimi, hər il həm Azərbaycanda, həm də Türkiyədə 10-dan çox birgə təlimlər keçirilir. Ona görə bu təlimlərin keçirilməsi adi haldır. Burada hansısa bir fövqəladə hal axtarmaq lüzumsuzdur. Biz də müşahidə edirik ki, bu təlimlər bəzi ölkələrdə narahatlıq doğurur. Ancaq buna heç bir əsas yoxdur. Bu, Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təzahürüdür.

Bizim bütün sahələrdə olduğu kimi, hərbi və hərbi-texniki sahədə də işbirliyimiz, əməkdaşlığımız sürətlə inkişaf edir. Sirr deyil ki, Türkiyənin hazırda çox güclü hərbi sənaye potensialı vardır və biz də bu potensialdan faydalanırıq. Biz çox sevinirik ki, Türkiyə bu gün ən müasir silahlar, hərbi texnika istehsal edir. Biz, əlbəttə ki, bu günə qədər olduğu kimi, bundan sonra da bu imkanlardan faydalanmaq istəyirik. Əminəm ki, yaxın zamanlarda Türkiyə bütün başqa sahələrdə olduğu kimi, hərbi-texniki əməkdaşlıq sahəsində də bizim üçün bir nömrəli tərəfdaş olacaqdır. Bildiyiniz kimi, həm siyasi, həm iqtisadi, həm də başqa sahələrdə bizim əlaqələrimiz bütün ölkələr üçün örnəkdir. Siz bilirsiniz, mən dəfələrlə demişəm ki, bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın və bağlı olan ölkələr yoxdur. Bu, həqiqətdir. Bu, həm tarixi və etnik köklərə əsaslanan həqiqətdir, eyni zamanda, biz - iki qardaş ölkə öz siyasətimizlə bu birliyi daha da möhkəmləndirdik.

Bir ay bundan öncə Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi hücumu nəticəsində hərbçilərin və mülki şəxsin həlak olması bir daha göstərir ki, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti davam edir. Bizi ilk və birmənalı şəkildə dəstəkləyən ölkə Türkiyə olmuşdur. Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan, hörmətli cənab nazir, siz, Xarici İşlər naziri, digər vəzifəli şəxslər bir neçə dəfə çox kəskin və ciddi açıqlamalar vermisiniz ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır və hər zaman Azərbaycanla bir yerdə olacaqdır. Bu, bizi daha da ruhlandırır və yenə də bizim bir-birimizə nə qədər yaxın olduğumuzu göstərir.

Bu təlimlərin uğurla keçməsi, əlbəttə, hesab edirəm ki, çox önəmli hadisədir. Bu təlimlər gələcəkdə də davam edəcək. Hesab edirəm ki, bu təlimlərin intensivliyi bundan sonra daha da artacaq, təbii ki, buna ehtiyac var. Əminəm, bizim qardaşlarımız - Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyəti bu günlər ərzində Azərbaycanda olarkən özləri də gördülər ki, onlar burada öz Vətənindədirlər. Əminəm ki, onlar Türkiyəyə döndükdən sonra da o xatirələri öz qəlblərində saxlayacaqlar. Bir daha xoş gəlmisiniz.

* * *

Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar dedi:

- Hörmətli cənab Prezidentim, sağ olun, çox təşəkkür edirəm.

Vaxt ayırıb bizi qəbul etdiyiniz üçün Sizə bir daha ehtiramımızı və təşəkkürümüzü bildirirəm. Eyni zamanda, cənab Prezidentimizin Zati-alinizə salamlarını və xoş arzularını çatdırmaq istəyirəm.

Bizim də, cənab Prezidentimizin də Sizi ailəlikcə tezliklə Türkiyədə gözlədiyimizi bildirmək istəyirəm. Həqiqətən, biz bir millət, iki dövlətik və bunu ən kiçik fərdə qədər hər kəs bilir. Xüsusilə, Türkiyədə 83 milyonluq xalqımızın nəbzi Azərbaycan ilə döyünür.

Tovuzdakı son hücumu ilk gündən etibarən cənab Prezidentimiz başda olmaqla bütün 83 milyonluq xalqımız nifrətlə qınayır. Bu təxribatların böyük hücum və beynəlxalq hüquqa zidd olduğunu, Xocalı qətliamından, Dağlıq Qarabağın işğalından etibarən cinayətkar hərəkətlərin davamı olduğunu görürük. Buna qarşı bizim mövqeyimizi bilirsiniz. Azərbaycan bizim qardaşımızdır, bir ananın iki ayrı övladıyıq. Burada biz özümüzü həqiqətən Vətənimizdə hiss edirik.

Bütün bunlar sadəcə sözdə qalmamalı, əməldə də həyata keçirilməlidir. Türkiyə Silahlı Qüvvələri ilə Azərbaycan Silahlı Qüvvələri arasında əməkdaşlıq bu gün deyil, hər zaman mövcud olub. 1991-ci ildə Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə olaraq Türkiyə Cümhuriyyəti ilə münasibətlər inkişaf etdirilərkən ordularımız arasındakı əlaqələr də, məlum olduğu kimi, inkişaf etməyə başladı. Belə ki, bizim hərbi çərçivə müqavilələrimiz, hərbi təhsil sahəsində əməkdaşlığa dair razılaşmalarımız, müdafiə sənayesi sahəsində əməkdaşlığımız var. Bütövlükdə bunların məntiqi nəticəsi olaraq, 2010-cu ildə imzalanan strateji əməkdaşlıq sazişimiz var. Beləliklə, bu müqavilələr çərçivəsində bizim buraya gəlməyimiz, getməyimiz, birlikdə olmağımız, yeməyimiz-içməyimiz, təlimlərdə bərabər olmağımız son dərəcə təbii bir fəaliyyətdir. Biz ölkələrimizin suverenliyi, müstəqilliyi və təhlükəsizliyi üçün lazım olan nə varsa bu günə qədər etdik və bundan sonra da etməyə davam edəcəyik.

Təbii ki, bu təlimlər çox önəmlidir. Təlimlər nəzəriyyənin əmələ çevrildiyi laboratoriya kimidir. Bu gün də bunun nümunəsini gördük. Böyük bir sevgi, böyük bir şövq, yüksək əhval-ruhiyyə gördük. Hamının gözləri yanırdı, birliklə yanaşı, bir işi bacarmağın sevincini yaşayırdılar.

Beləliklə, biz əməkdaşlığımızın davamını, bu təlimlərin bu gün başa çatmasını deyil, sadəcə bir mərhələsini gördük. Hərbi təlimlər, hərbi təhsil davamlı prosesdir. Buna görə də bu istiqamətdə fəaliyyətlər davam edir.

Bu səbəbdən cənab Prezidentimiz başda olmaqla Türkiyə Cümhuriyyəti dövləti və bizim 83 milyonluq xalqımız buradakı fəaliyyətləri həqiqətən böyük sevgi və şövq ilə yaxından izləyir. Atatürkün də dediyi kimi, Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir. Həqiqətən bu, bir millət olmağımızın təbii nəticəsidir.

Burada Baş Qərargah rəisimiz, Quru Qoşunları, Hərbi Hava Qüvvələri komandanlarımızla birlikdə həqiqətən bunu çox mühüm tapşırıq, mühüm iş olaraq görürük.

Buradakı dostlarımıza da dedik, Azərbaycan tək deyil. Bunu hər kəs bilsin. Biz bərabərik, birik, bir millətik. Biz sülhün, sabitliyin tərəfdarıyıq. Təkcə ölkələrimizin təhlükəsizliyi, əmin-amanlığı mənasında deyil, bütün Qafqazın, bütün bölgənin sülh və əmin-amanlıq içərisində olmasının tərəfdarıyıq. Digər tərəfdən, haqqımızın, hüququmuzun, mənafelərimizin də tapdalanmasına imkan verməyəcəyimizi, bunların qorunması üçün lazım olan nə varsa edəcəyimizi hamının bilməsini istəyirik.

Bizi qəbul etdiyiniz üçün bir daha təşəkkür edirik. Sağ olun, var olun.

Prezident İlham Əliyev: Çox sağ olun. Çox təşəkkür edirəm. Xahiş edirəm ki, mənim də səmimi salamlarımı əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğana çatdırasınız.

# Azərbaycan-Türkiyə birgə təlimlərində “Yüksək Səviyyəli Müşahidəçi Günü” keçirilib

*14 yanvar 1992-ci il tarixində Azərbaycan və Türkiyə arasında diplomatik münasibətlərlə bağlı imzalanan müqavilənin üzərindən 28 il keçir. Bu müddət ərzində ikili əlaqələrin artırılması və gücləndirilməsi məqsədilə 2010-cu ildə prezidentlər səviyyəsində Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının mexanizmi yaradılıb. Sonra regional sabitlik, sülh və rifahı təmin edəcək əhəmiyyətli mexanizmlər işlənilib.*



Xəzər dənizi enerji qaynaqlarının dünya bazarına çıxarılmasını nəzərdə tutan Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, TANAP (Trans Anadolu Təbii Qaz Boru Xətti) və Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin reallaşdırılması Azərbaycan və Türkiyə arasında strateji ortaqlığa gedən yolda mühüm addım olub.

Bu gün iki ölkə arasında ticarət əlaqələri ən yüksək səviyyədədir. Qarşılıqlı etibar və həmrəylik əsasında formalaşan Azərbaycan-Türkiyə əlaqələri beynəlxalq platformalarda da davam edir. Hər iki dövlət beynəlxalq təşkilatlarda birgə əməkdaşlıq nümayiş etdirir.

Türkiyənin Azərbaycanla əlaqələri yüksək strateji səviyyədədir. Azərbaycan-Türkiyə ikitərəfli əlaqələri bölgədə sabitlik və sülhün qurulmasına xidmət edir, heç bir ölkəyə təhdid yaratmır. Son 28 ildə iki ölkə arasında əldə edilmiş uğurlar sarsılmaz birlik, dostluq və qardaşlıq bağının bir göstəricisidir.

Türkiyə Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi içərisində, sülh yolu ilə həllinə səy edir. Bu çərçivədə ATƏT-in Minsk Qrupunun bir üzvü olaraq cəhdlərini əsirgəmir. Xüsusilə, 2016-cı il Aprel döyüşləri və son Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində mövqelərimizin artilleriya atəşinə məruz qalması iki dövlət arasında yaşanan şiddətli qarşıdurmalar və can itkiləri Dağlıq Qarabağ müzakirələrini daha da artırdı. Amma təəssüf ki, Minsk üçlüyü qərarlı addım atmamaqla müddəti uzadır. Beynəlxalq qərarlara əməl olunmur. Heç nəyə baxmayaraq, Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həll edilməsi Türkiyənin Azərbaycana dəstəyilə davam edir.

Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri, iki müttəfiq respublika arasında əlaqələrin yüksələn xətlə inkişafı, o cümlədən birgə həyata keçirilən iqtisadi layihələr təkcə Qafqaz və Anadolu regionları üçün deyil, Avrasiyanın böyük bir hissəsi üçün xüsusi əhəmiyyət daşıyır. Türkdilli dövlətlərin zəngin təbii sərvətləri və milli inkişaf konsepsiyası Azərbaycan və Türkiyənin birgə həyata keçirdiyi layihələrin davamlı olması üçün perspektiv yaradır. Bu prosesin ayrı-ayrı istiqamətlərini çatdırmaq məqsədilə Azərbaycan-Türkiyə müttəfiqliyinin əsaslarına qısa nəzər salmaq zəruridir.

Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq çərçivəsində iki ölkənin Silahlı Qüvvələri arasında koordinasiyanın inkişaf etdirilməsi məqsədilə hər il hərbi təlimlər təşkil olunur. Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi Azərbaycanın çoxistiqamətli inkişaf strategiyasının mahiyyəti regionda sülhün bərqərar olunması, mehriban qonşuluq və səmimi dostluq, qarşılıqlı anlaşma və inkişaf amillərini özündə ehtiva edir. Bu strategiyanın əsasında Azərbaycan və Türkiyənin müttəfiqliyi dayanır. Çünki konkret olaraq özünümüdafiə imkanları dinamik inkişafda olmasa, kənar təsirlər heç bir iqtisadi layihənin reallaşmasına imkan verməz, yaxud da bu layihələrə real təhlükə yaradar. Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının mahiyyəti məhz bu amilə əsaslanır. Hər iki dövlətin rəhbərləri açıq şəkildə bəyan ediblər ki, heç bir ölkənin torpağına iddia etmirlər, dövlətlərin ərazi bütövlüyünə hörmətlə yanaşır, təbii sərvətlərinə göz dikmirlər. Bununla belə, hər iki ölkə suveren hüquqlarını, o cümlədən ərazi bütövlüyünü təmin etmək və qorumaq, təbii sərvətlərindən azad şəkildə bəhrələnmək, kommunikasiya və geosiyasi imkanlarından səmərəli istifadə etmək hüququnu özündə saxlayır və üçüncü tərəfin bu prinsiplərə qarşı çıxmasına imkan verməyəcək.



Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində davamlı inkişaf edən Azərbaycan-Türkiyə müttəfiqliyinin regionda sülhə, sabitliyə və inkişafa xidmət amili olmasını təsdiqləyən nəhəng işlərin faydası artdıqca bu ölkələrin cəlbediciliyi daha da çoxalır. Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan beynəlxalq "Şərq-Qərb" nəqliyyat-kommunikasiya dəhlizi bölgə və dünya ölkələrinə bu sahədə əlavə üstünlüklər qazandırıb. Bundan başqa, Trans-Avrasiya Super İnformasiya Magistralı (TASIM) layihəsinə BMT Baş Assambleyasının qəbul etdiyi 3 qətnamədə dəstək verilməsi Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığının daha bir real nəticəsidir.

Əlamətdar haldır ki, Xəzər dənizinin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarının işlənməsi məqsədilə 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin nəticəsi olaraq həyata keçirilən layihələr yeni iqtisadi perspektivlər yaradır.



Azərbaycan və Türkiyə birmənalı olaraq bəyan ediblər ki, xarici siyasətlərində qarşılıqlı münasibətlərin inkişafı prioritet məsələdir. Burada hərbi əməkdaşlıq mühüm strateji istiqamətdir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın avqustun 11-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovu və Müdafiə naziri general-polkovnik Zakir Həsənovu qəbul etməsi, ertəsi günü Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar, Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler, qoşun növü komandanları və digər yüksək rütbəli zabitlərin Azərbaycana səfəri və nümayəndə heyətinin dövlətimizin başçısı tərəfindən qəbul edilməsi bir daha göstərir ki, iki qardaş ölkə həm beynəlxalq əhəmiyyətli iqtisadi layihələri gerçəkləşdirmək, həm də özlərinin bütün milli maraq və mənafelərini qorumaq strategiyasını əzmlə davam etdirəcək. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında Sazişə əsasən, illik plana uyğun olaraq hər iki dövlətin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə 2020-ci il iyulun 29-dan Azərbaycanda başlanan növbəti genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri bütün Qafqaz bölgəsinə sülh və əmin-amanlıq vəd edən tarixi səhifə oldu. Bu strategiyanın qorunması Azərbaycan və Türkiyə xalqlarının mənəvi haqqı, dövlətlərimizin beynəlxalq hüquqla müəyyən olunan suveren hüququdur.

Avqustun 12-də Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar, Baş Qərargah rəisi ordu generalı Yaşar Güler, qoşun növü komandanları və digər yüksək rütbəli zabitlər Azərbaycana səfərə gəliblər.

Avqustun 13-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar, Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov, Türkiyə Respublikasının Baş Qərargah rəisi ordu generalı Yaşar Güler və hər iki ölkənin müxtəlif qoşun növləri komandanları Fəxri xiyaban, Şəhidlər xiyabanı və Türk Şəhidliyini ziyarət edərək əklillər və gül dəstələri qoyublar.

Avqustun 13-də Azərbaycan-Türkiyə quru qoşunları və hərbi hava qüvvələrinin birgə döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib.

Azərbaycan və Türkiyə Müdafiə Nazirliklərinin rəhbərliyi və qoşun növləri komandanları təlimlərin birinci mərhələsinin son epizodunu izləmək üçün təlim poliqonuna gəliblər.

Əvvəlcə təlimin planlaşdırılması, ona hazırlıq prosesi, qoşunların yerləşdirilməsi, eləcə də mərhələlər üzrə icra olunan tapşırıqlar barədə brifinq təqdim edilib. Təlimlər haqqında ərazinin maketi üzərində ətraflı məruzə olunduqdan sonra yüksək səviyyəli qonaqlar təlimlərə cəlb edilən şəxsi heyət və hərbi texnika ilə tanış olub, qarşıya qoyulan tapşırıqların praktiki icrasını müşahidə ediblər.

Keçirilmiş birgə taktiki təlimlərdə hər iki ölkə ordularının hərbi qulluqçuları və bölmələri yüksək peşəkarlıq və bacarıq göstərib, birgə fəaliyyətlərin planlaşdırılmasında və icrasında qərargahların və bölmələrin şəxsi heyəti əvvəlki təlimlərdə əldə etdikləri təcrübələrini artırıb, hər iki ölkənin milli maraqlarından irəli gələn strateji məqsədlərə nail olmaq üçün qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlməyə hazır olduqlarını nümayiş etdiriblər.

Birgə təlimlərin birinci mərhələsinin son epizodu müvəffəqiyyətlə başa çatdıqdan sonra qonaqlar şəxsi heyətlə görüşüb, fərqlənən hərbi qulluqçuları mükafatlandırıb və xatirə şəkli çəkdiriblər.

Sonda Azərbaycan və Türkiyə hərbi marşlarından ibarət musiqi proqramı nümayəndə heyətləri və təlim iştirakçılarına təqdim olunub.

**"Azərbaycan Ordusu"**

*Ön xətdən reportaj*

# “Hər an döyüşə hazırıq”



*Ali Baş Komandan İlham Əliyevin göstərdiyi diqqət və qayğının sayəsində regionda sözünü deyə bilən, müasir silah və texnika ilə təmin olunan güclü ordumuz formalaşıb. Gündən-günə müasir tələblərə cavab verən şəxsi heyətin formalaşması, döyüş meydanında praktiki vərdişlərin təkmilləşdirilməsi üçün keçirilən təlimlər ordumuzun gücünə güc qatır. Belə güclü və müasir orduda xidmət edən zabitlərin üzərinə həm şəxsi heyətə döyüş ruhunun aşılanması, həm də onların döyüş və mənəvi-psixoloji hazırlığının yüksək tutulması kimi mühüm vəzifələr düşür.*

Ordu sıralarında xidmət edən hərbçilərimiz dəfələrlə istənilən döyüşə hazır olduqlarını sübut ediblər. Bunun bariz nümunəsi 2016-cı ilin Aprel döyüşləri və 2018-ci ilin Günnüt zəfəridir. Qazanılan bu qələbələr sadəcə başlanğıcdır. 12 iyul 2020-ci ildə mənfur düşmənin qəfil təxribatının qarşısının alınması da əsgərlərimizin ayıq-sayıq xidmət aparmasından və hər an döyüşə hazır olmasından xəbər verir.

Yenə yolumuz Vətənimizin müdafiəsində dayanan oğullarımızın yanınadır. "N" hərbi hissəsində bizi qarşılayan zabit Ceyhun Rzayev deyir ki, ordu sıralarında xidmət edən peşəkar zabit heyəti hərb sənətinə olan sevgisi, vətənpərvərliyi, bilik və bacarığı ilə tabeliyində xidmət edənlərə şəxsi nümunədir. “Əsgərlərimiz komandirlərinin öyrətdiklərini dərindən mənimsəyir, yuxarı komandanlıqdan hər an döyüş əmrini gözləyirlər. Onların mənəvi-psixoloji təminatı ordu quruculuğunun və döyüşə hazırlığın əsas göstəricilərindən biridir. Əgər hərbi qulluqçuların əhval-ruhiyyəsi yüksək olmasa, o ordu döyüş meydanında məğlub olacaqdır. Buna görə qarşımızda duran əsas vəzifələrdən biri şəxsi heyətin mənəvi-psixoloji və döyüş qabiliyyətini daim yüksək tutaraq, torpaqlarımızı düşmən işğalından hərb yolu ilə azad etməyə hər an hazır olmaqdır. Qafqazın ən güclü ordusunun zabiti olaraq deyə bilərəm ki, ordumuzun döyüş əzmi, mənəvi-psixoloji hazırlıq və peşəkarlıq səviyyəsi yüksəkdir. Hər birimiz Ali Baş Komandanın döyüş əmrini gözləyirik. Mütəmadi olaraq mövqelərdə olarkən, əsgərlərimiz nə zaman döyüş əmri veriləcəyini soruşurlar. Hər biri xalqımızın onlara olan etimadını doğrultmağa, işğal edilən torpaqlarımızı azad etməyə, soydaşlarımıza qələbə sevincini yaşatmağa tələsirlər. İnanırıq ki, o gün uzaqda deyil".



Zabitlə birgə döyüş mövqeyinə yola düşürük. Bizi qarşılayan leytenant Sərxan Namazov mövqedə heç bir hadisənin baş vermədiyini bildirir. Öyrənirik ki, Sərxan Azərbaycan Dövlət İqtisad Universitetinin məzunudur. Düşmənə olan nifrəti onun zabit olmasına səbəb olub. Valideynlərinin xeyir-duasını alaraq sənədlərini Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə təqdim edir. Ehtiyat zabit hazırlıq kursunu müvəffəqiyyətlə başa vuran və leytenant hərbi rütbəsinə layiq görülən Sərxanın təyinatı düşmənlə təmas xəttində yerləşən bölmələrdən birinə verilir. O, tez bir zamanda komandirlərinin rəğbətini qazanır. Əsgərlərindən diqqət və qayğısını əsirgəməyən zabit, mütəmadi olaraq tabeliyində xidmət edənlərlə fərdi söhbət aparır.

- Ermənlər bizim əzəli düşmənimizdir, - deyə leytenant Sərxan Namazov söhbətə başlayır. - Onlar millətimizin xoş niyyətli olmasından istifadə edərək, torpaqlarımızın bir qismini işğal etdilər. Ancaq igid oğullarımız üzərində böyüyüb boya-başa çatdıqları torpaqlar uğrunda mübarizə apardılar. Bu gün də onlar səngərdə Vətənimizin müdafiəsində dayanırlar. Mübariz, Samiq, Raquf kimi igidlərimiz öz qəhrəmanlıqları ilə dillərə dastan oldular. Onların vətənpərvərlik hissi şəxsi istəklərini, arzularını üstələyirdi. Onlar Vətənimizin azadlığı uğrunda şəhidlik zirvəsinə ucaldılar. Məhz bu amil vətənpərvərlik deməkdir. İndi növbə bizdədir. Bizə əmanət buraxılan mirasa sahib çıxmalı, onu göz bəbəyimiz kimi qorumalıyıq. Mən də çalışıram ki, əsgərlərim yüksək döyüş hazırlığına malik olsunlar. Tədris müddətində mənimsədiklərimi əsgərlərimə öyrədirəm. Çünki döyüşün gedişini texnika yox, şəxsi heyətin döyüş hazırlığı həll edir. Əsgərlərimiz də öz növbəsində dərslərdə fəal iştirak edir, hərbin sirlərinə dərindən yiyələnməyə çalışırlar. Zabit onu da bildirdi ki, gələcək döyüşlərin iştirakçısı olmaq onun ən böyük arzusudur. “Mən qalib ordunun zabiti olmaq istəyirəm. Düşmənlərimiz də bilsinlər ki, Azərbaycan əsgəri istənilən an işğal edilən torpaqlarımızı azad etməyə qadirdir”.

Kiçik çavuş Ruslan Dadaşov səngərin hamı üçün müqəddəs olduğunu deyir. "Düşmənə nifrəti, Vətənə məhəbbəti məhz burada daha yaxından hiss etdik. Hərbi xidmətdə Vətənimizin hər qarış torpağını nəyin bahasına olursa-olsun, qorumalı olduğumu öyrəndim. Artıq əsgəri xidmətim sona çatır. Məndən sonra xidmətə gələn silahdaşlarıma da ayıq-sayıq olmağı, hərbin sirlərinə dərindən yiyələnməyi və hərbi formanı daim səliqəli daşımalarını tövsiyə edirəm. Xidmətim ərzində komandirlərimiz diqqət və qayğılarını bizdən əsirgəməyiblər. Hər zaman xidmətdə fərqlənənlər yuxarı komandanlıq tərəfindən mükafatlandırılırlar. Onlar həmişə əsgərlərlə vətənpərvərlik mövzusunda söhbətlər aparır, işğal edilən torpaqlarımızın zəngin təbiətindən danışır, Vətən torpaqları uğrunda canından keçən şəhidlərimizdən bizlərə geniş məlumat verirlər. Baş leytenant Fərid İsmayılov və leytenant Sərxan Namazov kimi vətənpərvər, savadlı zabitlərlə çiyin-çiyinə xidmət etməyimlə qürur duyuram".

Əsgər Azər Tele-zadə deyir ki, Vətənimə qüsursuz xidmət etməyi özümə mənəvi borc bilirəm. "Hamımızın bir amalı var - ata-baba yurdumuzu düşməndən azad edək. Döyüş növbətçisi olanda müşahidədən işğalda olan torpaqlarımızı görürəm. Bir zaman oralarda soydaşlarımız yaşayıblar. Bunları fikirləşəndə düşmənin üstünə irəliləmək, törətdikləri vəhşiliklərin, şəhid qardaş və bacılarımızın qisasını almaq istəyirəm. İnanıram ki, tez bir zamanda komandirlərimizin rəhbərliyi altında qisasımızı alacaq, erməniləri ata-baba yurdlarımızdan qovub çıxaracağıq. O günə qədər hər birimiz xidmətimizi düzgün təşkil etməliyik, hər an döyüşə hazır olmalıyıq. Yuxarı komandanlıq da bunun üçün hərbi hissədə hər cür şərait yaradıb. Komandirlərimiz döyüş və fiziki hazırlığımızı daima diqqət mərkəzində saxlayırlar. Onlar həmişə vurğulayırlar ki, düşmənlə üzbəüz döyüşdən qalib ayrılmalıyıq. Döyüş mövqeyində ayıq-sayıq dayanırıq, düşmənin bütün fəaliyyətini nəzarət altında saxlayırıq. Hər gün xidmətimizi döyüşə girəcəyimiz gün kimi təşkil edirik".

- Düşmənlə təmas xəttində yerləşən bölmələrdən birində xidmət etməyimlə fəxr edirəm, - əsgər Rəşad Əhmədov deyir. - Gənc əsgər hazırlığı dövründə qazandığımız bütün bilikləri sınaqdan keçirməyə imkanımız var. Gecə və gündüz müşahidələr apardığımız zaman döyüş hazırlığında mənimsədiklərimiz biliklərdən istifadə edirik. Artıq gecəgörmə cihazları olmadan belə hər hansı bir səsin hansı istiqamətdən gəldiyini, hansı məsafədə olduğunu bilirik. Mühəndis hazırlığında komandirlərimizin öyrətdiklərindən istifadə edərək, səngərdə müxtəlif cür maneələr düzəldirik. Ən çox sevdiyim dərslərdən biri atəş hazırlığıdı. Artıq xidmətimin çox hissəsini geridə qoymuşam. Vaxtın necə keçdiyini hiss etmədim, çünki hər günümüz səmərəli və maraqlı keçirdi. Hər gün idmanla məşğul olduğumuz üçün fiziki gücümüz artır. Bu da o deməkdir ki, döyüş meydanında erməni əsgərindən cəld və güclü olacağıq. Düşmənlə əlbəyaxa döyüşdən qalib çıxacağıq. Onsuz da bütün dünyaya məlumdur ki, erməni xalqı çox aciz və qorxaq xalqdır. Qorxmaqda da haqlıdırlar, çünki güclü, mərd, cəsur və vətənpərvər Azərbaycan əsgərlərinin qarşısında dayanıblar.

Azərbaycan əsgərinin arzusu xalqımıza Qələbə bəxş etməkdir. Hər biri istəyir ki, torpaqlarımızın işğaldan azad edilməsində payı olsun. Qeyd etmək lazımdır ki, bütün bunların əsasında komandir və əsgərlərin arasında olan sağlam qarşılıqlı münasibət dayanır. Həmçinin ordu sıralarında xidmət edən savadlı və bacarıqlı komandirlərin olması tabeliyindəkiləri Qələbəyə ruhlandırır. Vətənin keşiyində ayıq-sayıq dayanan oğullarımız da yuxarı komandanlığın etimadını öz xidmətləri ilə doğrultmağa çalışırlar. Hər birinin sözlərindən bir daha əmin olursan ki, torpaqlarımızın müdafiəsi etibarlı əllərdədir.



**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

*Tarix olduğu kimi*

# Şahidi olduğun hadisə yaddaşda daha dərin iz qoyur

*Elə tarixi hadisələr var ki, onlara dərsliklərdə, bu və ya digər kitablarda təsadüf edilmir. Belə hadisələr ya arxivlərdə qalır, ya da yaddaşlarda. Nə yaxşı ki, yaddaşlarda yaşadılanlar xalqa qaytarıla bilir - tarix olduğu kimi öyrənilir.*

*Harvard Universitetinin məzunu diplomat, böyük tarixi şəxsiyyət Heydər Əliyevin şəxsi tərcüməçisi Tahir Kərimovun yaddaşında yaşadılan bir hadisə azərbaycançılıq heysiyyəti kimi oxunur. Bu hadisənin siyasi çalarlarını, mahiyyətini nəzərə alaraq onu dərc edirik.*

**"Azərbaycan Ordusu"**



Şahidi olduğun hadisə yaddaşda daha dərin izlər qoyur.

1965-ci ilin baharının ilk ayı idi. İrəvan quberniyasının Yeni Bayazid qəzasının Çəmbərək (Krasnoselo) rayonunun camaatı Novruz bayramı əhval-ruhiyyəsi ilə yaşayırdı. Yaşlılar çaşır yığmaq üçün ağır kürkləri çıxardıb yamaclara çıxmaq zamanını, uşaqlar isə əldən düşənədək üzmək üçün Göyçə gölünün suyunun isinməsini gözləyirdilər.

Rayon Partiya Komitəsinin katibi Kazım Əliyev səhər-səhər iş otağında daxil olan məktubları diqqətlə oxuyur, dərkənar qoyur, müvafiq şöbələr üzrə tapşırıqlar verirdi. Telefon zəng çaldı. Birinci katib Əli Həsənovla birbaşa əlaqə telefonu idi.

- Buyurun, yoldaş Həsənov.

- Kazım, Ağbulaqdakı təsərrüfatlarla bağlı fikrini bilmək istəyirəm. Bir düşün, gələcəm danışaq.

Aralarında səmimi münasibətlər olsa da, belə qeyri-formal zəng bir az gözlənilməz oldu. Həm də Ağbulaq ərazisində müzakirə oluna biləcək xüsusi mövzu da yox idi.

Əli Həsənov Kazım Əliyevin otağına gəldi. Bir neçə dəfə Ağbulaq kəndinin adını çəkdikdən sonra gözləri ilə Kazım Əliyevi dəhlizə dəvət etdi. Hər ikisi dəhlizə çıxdılar. Əli Həsənov dedi:

- Günorta qonağımız olacaq. Bu yerlərin adamı deyil. Sizdə nahar edəcəyik. Səməndər bacıya de hazır olsun. Telefonla bir söz demə. İşdən tez gedərsən. Bizim evdə qulaq var (Əli Həsənov evində danışıqların izlənməsi üçün cihaz quraşdırıldığını nəzərdə tuturdu).

Qonağın kim olmasını soruşmazlar. Bu yerlərin qaydası belə idi. Günorta Kazım Əliyevin evinə "QAZ 69" markalı maşın yaxınlaşdı. Ev sahibi və Əli Həsənov qonağı gözləyirdi. Maşından hündür boylu, idmançı cüssəli, mavi gözlü, 40 yaşlarında bir adam düşdü. Əli Həsənovla görüşdü. Onlar tanış idilər. Sonra Kazım Əliyevlə də görüşdü. Diqqətlə Kazım Əliyevə baxdı. Həyətə daxil oldular. Qonaq Əli Həsənovdan soruşdu:

- Haqqında danışdığın əməkdaşın bu adamdır?

Əli Həsənov təsdiq etdi. Otağa keçdilər. Səməndər xanım məcməidə xoruzpipiyi dəmlənmiş ətirli cayla içəri daxil oldu.

- Sizin tərəfdə kəklikotu çayı olmur? - qonaq səmimiyyətlə soruşdu, otağa çökmüş rəsmiyyəti bir sadəlik əvəzlədi.

Az keçmiş Səməndər xanım bu dəfə kəklikotu çayını süfrəyə düzdü, yanında da İrəvan kətəsi. Ətirli qoxu otağı bürüdü. Çayın qonağın ürəyincə olması sezilirdi.

Qonaq saatına baxdı:

- Yemək qalsın başqa vaxta. Çıxaq havaya, - deyib ayağa qalxdı.

Səməndər xanıma minnətdarlığını bildirdi:

- Belə yerlərin kəklikotu dəmini içməyib gedə bilməzdim.

İdmançı görkəmli adam gəldiyi "QAZ 69"da, Əli Həsənovla Kazım Əliyev "Volqa"da ermənilərin sıx məskunlaşdığı Orconikidze kəndini keçərək Şınıx dərəsi tərəfə, Azərbaycan SSR ərazisinə, Gədəbəyə, Mutu dərəyə, Köhnə Baş Keçidə üz tutdular. Bir qədər sonra maşınlar dayandı. Qonaq "Qoy əməkdaşın bizi burada gözləsin", - dedi.

Əli Həsənovla qonaq aralanıb şumluğa tərəf getdilər. Kazım Əliyev maşının yanında qaldı. Bir saat davam edən söhbətdən sonra qonaqla birinci katib geri döndülər. Qonaq hər ikisi ilə görüşüb öz maşınına tərəf irəliləməzdən əvvəl Əli Həsənova sakit, lakin qətiyyətli səslə dedi:

- Yoldaşa da vəziyyəti izah et. Heç bir şeydən də çəkinməyin. Bir addım belə ata bilməzlər. Möhkəm dayanın.

Əli Həsənov qayğılı görünürdü, başını bulayıb Kazım Əliyevə dedi:

- Bu adam Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin rəis müavini Heydər Əliyevdir, bizi böyük bəladan qurtarmağa gəlib. Bakıdan Naxçıvana, oradan da maşınla birbaşa bizim rayona gəlib. Qonşularımız dinc durmurlar.

İki gün sonra rayonda görünməyən hadisələr yaşandı. Çəmbərəkə Moskvadan DTK-nın nümayəndələri gəldilər. Sovet rəhbərliyi milli məsələyə və millətçiliyin hər hansı bir təzahürünə çox həssas yanaşırdı. Rayonun "Ordu, Aviasiya və Donanmaya Könüllü Yardım Cəmiyyəti"nin binasındakı silah otağından yoxa çıxmış silahlar Moskvadan gələn komissiya tərəfindən Orconikidze ermənilərindən yığıldı. Məhdud sayda adama məlum idi ki, oradan və rayon milis şöbəsinin silah saxlanılma otağından "itmiş" silahlar əvvəlcədən hazırlanmış plana əsasən ermənilərə paylanıb.

Aprelin 24-ü, qondarma "erməni soyqırımı" günündə Yerevandan gəlmiş dəstə ilə yerli millətçilər təxribatlar törədərək Gədəbəyin Şınıx dərəsinin Orconikidzeyə yaxın kəndlərində və Krasnoselonun Ardanış, Şorca və Ağbulaq kəndlərində azərbaycanlıları qırmağı planlaşdırıbmışlar.

Qondarma "erməni soyqırımının" 50 illiyi ərəfəsində Qərbdə, o cümlədən Latın Amerikasında və Yaxın Şərqdə yaşayan ermənilər Türkiyə əleyhinə genişmiqyaslı terror aksiyalarına start verməyi qərara aldılar.

Ondan əvvəl isə Azərbaycanda və Ermənistanda azərbaycanlılara qarşı silsilə təxribatlar planlaşdırılırdı. Erməni lobbisinin təzyiqləri qarşısında aciz qalan Sovet rəhbərliyi prinsipsizlik nümayiş etdirərək 1965-ci ildə "soyqırımla" bağlı Yerevanda məhdud çərçivədə tədbir keçirilməsinə icazə verdi. Əslində, bu aqressiv erməni milliyyətçiliyinə SSRİ məkanında əl-qol açmağa imkan yaratmışdı.

Krasnoseloda dindirmələr, sorğu-suallar başladı. Rayonun partiya-sovet və hüquq-mühafizə orqanlarının rəhbərləri də Moskvadan göndərilmiş xüsusi komissiya tərəfindən şübhəlilər qismində təhqiqata cəlb olundular. Yerli milis şöbəsinin rəisi mayor Qaleçyan xüsusilə narahat görünürdü. Əsaslar isə ciddi idi. Əvvəllər də azərbaycanlılara qarşı nifrətini gizlətməyən Qaleçyanın dinc əhalinin əmin-amanlığını qorumaq əvəzinə, terror şəbəkəsinin əsas əlaqələndiricisi olması üzə çıxmışdı.

Rayonda müxtəlif şayiələr yayılmağa başladı. Camaat terror şəbəkəsinin Yerevana, oradan da xaricə uzanmasını müzakirə edirdi. Moskva komissiyasının rayonda işinin ikinci günü Qaleçyanın öldürüldüyü xəbəri yayıldı. Rəsmi versiya "özünəqəsd" oldu. Qaleçyanın kabinetində ağzının içinə atəş açılmışdı. Kriminal aləmdə ağzından söz qaçıran şəbəkə üzvləri belə cəzalandırılır. Bu ölüm, əslində, Moskva komissiyasının da işinə yaradı. Şəbəkənin əsas təşkilatçıları və üzvləri nə bilindilər, nə də həbs olundular.

Bu gerçək hadisə Heydər Əliyevin həyatından olan epizodik bir andır. Heydər Əliyev yüzlərlə, minlərlə soydaşımızı erməni terrorundan xilas etmişdi...

Göyçəlilər daha 23 il öz dədə-baba torpaqlarında yaşadılar. Əli Həsənov daha 4 il Birinci katib işlədi. Daha sonra İrəvanda rəhbər vəzifələrdə işləsə də, onun erməni siyasi dairələri tərəfindən təqibləri başlanmışdı, hər an şərlənərək həbs edilməsi zaman məsələsi idi. Heydər Əliyev bu vətənpərvər azərbaycanlı kadrı erməni şovinizmindən xilas edərək Azərbaycana dəvət etdi və o, Azərbaycanda məsul vəzifələrdə çalışdı. Həsənovdan sonra azərbaycanlıların böyük əksəriyyət təşkil etdiyi Krasnoseloda bir daha birinci şəxs postuna Azərbaycan türkü təyin edilmədi.

O dövrün gerçəkliyi elə idi ki, Anti-Azərbaycan Sovet rejiminin sərt qadağaları çərçivəsində Heydər Əliyevin belə fədakarlıqlarından xalqımızın xəbəri olmurdu, amma az sayda bilənlər Azərbaycan xalqının böyük oğlunun belə əməllərini daim minnətdarlıqla xatırlayırlar.

Nə yaxşı ki, həmfikrim, Göyçəli həkim Hüseyn Hüseynov kimi həmin hadisələrin canlı şahidləri həyatdadır.

**Tahir KƏRİMOV,**
**tərcüməçi**

## Müdafiə Nazirliyi Azərbaycan Ordusunun yüksələn imicinə xələl gətirməyə yönələn yalan məlumatlara münasibət bildirib

Xaricdə məskunlaşaraq ölkəmizə düşmən mövqedə olan mənbələr, eləcə də Ermənistanın xüsusi xidmət orqanları tərəfindən maliyyələşdirilən, onlardan təlimat alan bəzi üzdəniraq şəxslər Azərbaycan Ordusunda uzun illər xidmət edən Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkova, eləcə də digər yüksək rütbəli zabitlərə qarşı qarayaxma kampaniyasının önündə gedirlər. Bu şəxslərin əsas məqsədləri Azərbaycan Ordusunun yüksələn imicinə xələl gətirməyə yönələn yalanlar uydurmaqdır.

Bunu AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

Qeyd olunub ki, onların bu yaxınlarda keçirilən əməliyyat müşavirəsində guya "Baş Qərargah rəisinin türkiyəli hərbi qulluqçuların birgə təlimlərə gəlməsi ilə bağlı təhqiramiz ifadələr işlətməsi" barədə iddiaları yalandır, növbəti iftiradır, heç bir həqiqətə uyğun deyil. Həmin müşavirədə qeyd olunan iddialarla bağlı heç bir fikir səsləndirilməyib, yalnız xidməti məsələlər müzakirə edilib.

Bu cür çirkin üsullarla Azərbaycan Ordusuna və hərbi qulluqçularımıza qarşı addımlar atan, qərəzli yazılar dərc edənlərin başlıca niyyətləri işğalçı Ermənistanın maraqlarına xidmət etməkdir. Amma həmin məkrli dairələr və onların ortaya atdığı ünsürlər bilsinlər ki, heç zaman çirkin niyyətlərinə nail ola bilməyəcəklər.

"Biz həmin şəxslər tərəfindən səsləndirilən qərəzli fikirləri qəti surətdə rədd edirik. Bildiririk ki, belə dezinformasiya xarakterli məlumatların məhz bu gün - Azərbaycan-Türkiyə birgə taktiki təlimlərinin keçirildiyi ərəfədə yayılması Ermənistanın xüsusi xidmət orqanları tərəfindən ölkəmizə qarşı həyata keçirilən növbəti təxribatın tərkib hissəsidir", - deyə qeyd olunub.

## Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçuları istirahət günlərində gəzintidə oldular

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə birgə təlimlərində iştirak edən Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçuları istirahət günlərində gəzintilər çərçivəsində Naxçıvan Muxtar Respublikasının tarixi-mədəni yerləri və muzeyləri ilə tanış oldular.

Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçuları Heydər Əliyev Muzeyini, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, Duzdağ Fizioterapiya Mərkəzini ziyarət edərək zəngin təəssüratlar əldə ediblər.

# “Dəniz kuboku” beynəlxalq müsabiqəsinin iştirakçıları ilə videokonfrans keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin Qərargahında "Dəniz kuboku" beynəlxalq müsabiqəsinin iştirakçıları ilə videokonfrans keçirilib.*



Videokonfransda iştirakçı dövlətlərin nümayəndələrinə müsabiqəyə hazırlıq haqqında ətraflı məlumat verilib. Bildirilib ki, bu il Azərbaycanın Xəzər dənizindəki ərazi sularında "Beynəlxalq Ordu Oyunları - 2020" yarışları çərçivəsində keçiriləcək "Dəniz kuboku" müsabiqəsində Qazaxıstan və İran komandaları COVID-19 virusu ilə əlaqədar müsabiqədə iştirak etməyəcək.

"Dəniz kuboku" beynəlxalq müsabiqəsinin cari ilin avqustun 25-dən sentyabrın 4-dək keçirilməsi planlaşdırılır.

# “Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hansı həll yolunu seçərsə, biz onun yanında olacağıq”

*Bildiyiniz kimi, iyulun 12-də Ermənistan silahlı qüvvələri Azərbaycanın Tovuz rayonu istiqamətində hərbi təxribat törətdi. Bir daha bildirmək istəyirəm ki, qardaş Azərbaycan tək deyil. Bütün imkanlarımızla, gücümüzlə qardaş Azərbaycanın yanındayıq və yanında olmağa davam edəcəyik.*

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu avqustun 11-də azərbaycanlı həmkarı Ceyhun Bayramovla görüşdən sonra keçirilən mətbuat konfransında bildirib.

"Ermənistan illərdir qardaş Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayır. BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qərar və qətnamələrinə baxmayaraq, Ermənistan münaqişənin həllindən yayınır. Ermənistan bu cür təxribatlarla danışıqların aparılması üçün təhlükəsiz şəraitin formalaşmasına mane olduğunu bütün dünyaya nümayiş etdirir. Beynəlxalq ictimaiyyət, həmçinin ATƏT-in Minsk Qrupu da münaqişənin həllinə ciddi səy göstərmir. Biz bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn normaları əsasında həllini dəstəkləyirik. Lakin qardaş Azərbaycan hansı həll yolunu seçərsə, biz o məsələdə də Azərbaycanın yanında olacağıq", - deyə Mövlud Çavuşoğlu vurğulayıb.

Nazir Azərbaycan və Türkiyənin birgə mühüm layihələr həyata keçirdiklərini xatırladaraq strateji layihələrlə bağlı fəaliyyətin daha da gücləndiriləcəyini söyləyib. Həmçinin elm, mədəniyyət sahələrində əməkdaşlığın daha da genişləndirilməsi üçün işlərin görüləcəyini vurğulayıb.

## Gənc zabitlərimiz

# Ordumuz yüksək döyüş hazırlığına malikdir



Bu gün Azərbaycan Ordusu yüksək döyüş qabiliyyətinə malik hərbi qulluqçulardan ibarətdir. Ordumuz peşəkar, savadlı və hərb peşəsinin bütün lazımi tələblərinə cavab verən zabitlərlə tam komplektləşib. Belə zabitlərimizdən biri baş leytenant Həmid Xancanov ilə düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində tanış olduq.

Vəzifəsinin öhdəsindən uğurla gələn, xidmətini düzgün təşkil edən, vicdanlı və qayğıkeş zabit 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirdikdən sonra ön xətt bölmələrinin birində xidmətə başlayıb. Həmidin əsas amalı torpaqlarımızın azad olunması əməliyyatında yaxından iştirak edib qələbə sevincini yaşamaqdır. Bunun üçün o, təcrübəsini artırmağa xüsusi önəm verir: "Ordunun döyüş qabiliyyəti əsgərin döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyətinin yüksək olmasından asılıdır. Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın geri qaytarılması üçün güclü hazırlığa, maddi-texniki bazaya malik olan ordu əsas şərtdir. Bu gün şəxsi heyətimiz elə bir səviyyədə döyüş hazırlığına malikdir ki, artıq düşmən qorxu içindədir. Bu gün düşmənin qarşısında 90-cı illərdəki ayrı-ayrı qruplarda cəmləşmiş ordu deyil, dünyanın ən güclü orduları sırasında özünə yer tutan nizami ordumuz dayanıb".

- Əgər bu gün biz müqəddəs mundiri geyinib, əldə silah torpaqlarımızın müdafiəsində dayanmışıqsa, bu bizim üçün böyük şərəfdir, - deyə zabit söhbətinə davam etdi. Tabeçiliyimizdə olan əsgərlərə daima Mübariz İbrahimov, Fərid Əhmədov, Raquf Orucov, Cavanşir Rəhimov, Çingiz Qurbanov və digər şəhidlərimizin keçdiyi şərəfli döyüş yolunu xatırladırıq. Qəhrəmanlarımızın igidlikləri əsgərlərə Vətən sevgisinin aşılanması üçün bir məktəbdir. Gənclərimizdə düşmənə nifrət, Vətənə sevgi hissi yüksək səviyyədədir. Prezident, Ali Baş Komandan cənab İlham Əliyev xalqımızın iradəsini ifadə edərək dəfələrlə deyib: “Azərbaycan bir qarış torpağını belə düşmənə verməyəcək”. Azərbaycan əsgərləri bu fikirləri rəhbər tutaraq döyüş ruhuna köklənib.

Zabitlə söhbətimizdən bir daha əmin olduq ki, ordumuz yüksək döyüş hazırlığına malikdir. Bu amil torpaqlarımızın Ali Baş Komandanın əmri ilə igid oğullarımız tərəfindən işğaldan azad ediləcəyinə inamımızı daha da artırır. İnanırıq ki, mərd oğullarımız Azərbaycan xalqına Qələbə sevincini yaşadacaqlar. Qarabağda, Şuşada, Laçında... tezliklə üçrəngli bayrağımızı dalğalandıracaqlar.

**Leytenant**
**Oruc MUSTAFAYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Azərbaycana qayıdıb

NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq rotasiya qaydasında Bakıya qayıdıb.

### “Tank biatlonu” müsabiqəsində iştirak edəcək hərbçilərimiz Moskva şəhərinə yola düşüblər

"Beynəlxalq Ordu Oyunları - 2020" yarışları çərçivəsində keçiriləcək "Tank biatlonu" müsabiqəsində iştirak etmək üçün Azərbaycan hərbçiləri Moskva şəhərinə yola düşüblər.

Müsabiqə avqustun 23-dən sentyabrın 5-dək keçiriləcək.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***14 avqust 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi və Əsrik Cırdaxan kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin, Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Nümunəvi xidmət

# “Döyüş əmrini qələbəylə tamamlayacağıq”



Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində zabit Şahlar Rüstəmbəyli yaradılan şəraitdən, şəxsi heyətin nümunəvi xidmətindən danışdı. "Ali Baş Komandanımız və ordu rəhbərliyi tərəfindən göstərilən yüksək diqqət və qayğı şəxsi heyətimizin döyüş əzmini daha da artırır, hər kəsdə Vətənə, torpağa sədaqət hissini, qələbə ruhunu yüksəldir.

Zabit Şahlar Rüstəmbəyli əsgər Cavid Pənahovun bacarıqlı əsgər olduğunu, məşğələlərdə və təlimlərdə fərqləndiyini dedi. "Xidməti uğurlar qazanan, hərbi biliklərini daha da artıran bu əsgər həm də gənc əsgərlərə köməklik edir, onlara diqqət və qayğı göstərir. Bu amillər onu şəxsi heyətə sevdirir. Belə əsgərlərimizlə öyünürük".

Əsgər Cavid Pənahov bildirdi ki, ordu sıralarına Şəmkir rayonundan çağırılıb. "Əsgər olduğum günü heç vaxt unutmayacağam. Əsgər olmaqdan şərəfli və müqəddəs heç nə ola bilməz. Hərbi xidmətə gələnə qədər mən də mütəmadi olaraq hərbi verilişlərə baxırdım. Bu, xidmətim zamanı dərs və məşğələlərdə hərbi bilikləri mənimsəməkdə gərəkli oldu. Komandirlərimiz məşğələləri səmərəli keçirdilər. Hər hansı bir sualımız yarandıqda onu əhatəli izah edirdilər. Qısa bir vaxt ərzində biz həm sıra, həm də döyüş vərdişlərini yüksək səviyyədə mənimsədik. İndi istənilən tapşırığı vaxtında yerinə yetirməyə hazırıq."

Əsgər Cavid Pənahov bildirdi ki, hərbi hissədə idman şəhərciyi yaradılıb. Hər gün günün nizam qaydalarına uyğun olaraq fiziki hazırlıq məşğələsi keçirilir. Dərs prosesində komandirlər hər bir idman təmrinini ətraflı izah edir, əyani şəkildə göstərirlər. Fiziki hazırlığımız da döyüş hazırlığımız kimi müntəzəm olaraq təkmilləşir. Mən və digər əsgər yoldaşlarım inanırıq ki, tezliklə Ali Baş Komandanımızın döyüş əmrini ilə torpaqlarımızı işğaldan azad edəcəyik.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Əsgərin döyüşə psixoloji hazırlığı

**Suallar:**
**1. Əsgərin psixoloji hazırlığının məzmunu.**
**2. Döyüşə psixoloji hazırlığın əsas üsulları.**

### Əsgərin psixoloji hazırlığının məzmunu

Hərbi qulluqçunun hərbi xidmətində, döyüş hazırlığında mənəvi-psixoloji cəhətdən kifayət qədər hazırlıqlı olmaması ona gətirib çıxarır ki, o, fəallıq göstərməyə çalışsa da, nəticələri ürəkaçan olmur. Yəni, belə bir insanın əqli, sensor (hissi) hərəkətləri, təfəkkürünün yaradıcı imkanları, axtarıcılıq qabiliyyəti, ağlının çevikliyi, şəraiti qiymətləndirmək, məlumatları işləyib hazırlamaq bacarıqları zəif olur, hərəkətlərində çaşqınlıq baş verir. Bura əlin, ayaqların əsməsi, səsin titrəməsi, hərəkətlərin rabitəsizliyi və zəifliyi daxildir. Məsələn, hərbi texnikanı yaxşı bilən və idarə edən hərbçi müfəttiş yoxlaması zamanı özünü itirir, kobud səhvlərə yol verir.

Hərbi hazırlığın yetəri qədər olmaması özünü hərbi qulluqçunun rəftarında və döyüş şəraitində gostərir. Belələri indiyə qədər ictimai qaydaları pozmayan şəxslər də ola bilər. Onların bəziləri əmrləri düzgün yerinə yetirə bilmir, hay-küyə və şayiələrə aldanır, onlarda məqsəd aydınlığı, qətiyyət, fəallıq, təşəbbüskarlıq, özünənəzarət zəif olur ki, bunları da yavaş-yavaş şübhə, inamsızlıq və qətiyyətsizlik əvəz edir və iradə zəifliyi müşahidə olunur.

Hərbçidə çatışmayan mühüm cəhət mənəvi-psixoloji hazırlığın zəifliyi ilə bağlıdır. Müharibənin tələb etdiyi hazırlıq başa çatdırılmayıbsa, o, əks psixoloji təsirlərin təzyiqindən özünü xilas edə bilmir. Əks psixoloji reaksiyaların təsirini azaltmaq üçün daxili qüvvələri səfərbər etmək lazım gəlir.

Əsgərin psixoloji hazırlığı - döyüşdə fəal, təşəbbüskar, fədakarcasına hərəkət etmək bacarığının qazanılmasını, fiziki və psixoloji gərginliyə tab gətirməyi, qorxu hissi ilə mübarizə aparmağı, döyüş tapşırıqlarını yerinə yetirmək üçün zəruri olan emosional - iradi keyfiyyətləri, psixoloji dayanıqlığın formalaşdırılması üzrə fəaliyyətlər kompleksini təşkil edir.

Təcrübə göstərir ki, əsgər öz döyüş hazırlığını tələb olunan anda lazımi dərəcədə həmişə göstərə bilmir. Hələ dünən gündəlik, sakit xidməti şəraitdə yaxşı və əla yerinə yetirilən hərəkətlər bugünkü döyüşdə ya yarımçıq alınır və yaxud heç alınmır. Bu əsgərin psixoloji cəhətdən kifayət qədər hazırlıqlı olmadığının göstəricisidir. Əsgərin psixoloji hazırlığı müasir tələblərə cavab verməli, Silahlı Qüvvələrin döyüş hazırlığının və döyüş qabiliyyətinin yüksəldilməsinə yönəldilməlidir.

Döyüş əsgərin öz potensialını cəld göstərə bilməsi bacarığına çox sərt tələblər irəli sürür. Bunun dəyəri isə - ya həmin əsgərin özünün, yoldaşlarının həyatı hesabına və yaxud döyüş tapşırığının yerinə yetirilməsi ilə ölçülür.

Əsgərin verilmiş tapşırığı bacardığı səviyyədə (döyüş ustalığını göstərməklə) yerinə yetirməsi daxili amillərdən - hər şeydən öncə insanın əqidəsindən, onun təhlükəli, gözlənilməz, qeyri-müəyyənlik və vaxt qıtlığı şəraitlərində səmərəli hərəkət etmək qabiliyyətindən, verilmiş məqamda əsgərin emosional vəziyyətindən, səhhətindən asılıdır.

Sadalanmış amillərin məcmusu "psixoloji hazırlıq" adlandırılır:

- əsgərin döyüşə psixoloji hazırlığı bölmənin döyüş fəaliyyətinə dərhal başlaya bilməsinin əsas tərkib hissələrindən biridir.
- Vətəni, doğmaları və əzizlərinin taleyi barədə əsgərin məsuliyyət hissini, özünə, öz yoldaşlarına, silahına, döyüş texnikasına inamın olmasını;
- mübarizə aparmaq, özünü sınaqdan keçirmək, öz zəif cəhətlərini üstələmək, düşmən üzərində qələbə qazanmağı nəzərdə tutur:
- əsgərin döyüşə psixoloji hazırlığının əsas əlamətləri:
- tələskənlik və qapalığın olmaması, hesablanmış və rəvan davranış;
- əmr və tapşırıqların səhvsiz və dəqiq yerinə yetirilməsi;
- normal fizioloji vəziyyət (nəbzin tezliyi, nəfəs alma, sifət rəngi və s.).

Döyüşə psixoloji hazırlığın 3 dərəcəsi var: 1 - aşağı, 2 - orta və 3 - yüksək.

Aşağı dərəcəli psixoloji hazırlığın təzahür cəhətləri: əsgər özünə inanmır, mübarizə aparmağa can atmır, qərarsızdır, həddindən artıq tələskən və yaxud qapalıdır, ən sadə tapşırıqların yerinə yetirilməsində səhvlər buraxır. Orta dərəcəli psixoloji hazırlığın xarakterik əlamətləri: özünə və yoldaşlarına inanır, lakin cəsarətli hərəkətləri, mübarizə aparmaq cəhdləri hələ kifayət qədər deyildir. Əsgər verilən tapşırıqların yerinə yetirilməsində kiçik səhvlərə yol verir, fizioloji vəziyyəti normaya yaxındır. Yüksək səviyyəli psixoloji hazırlığı isə mübarizə aparmaq arzusu, şübhələrin yoxluğu, özünü sınamaq istəyi və düşmən üzərində qələbənin qazanılması istəyi fərqləndirir. İnsan fiziologiyasının və psixikasının mühafizə mexanizmləri olduğuna görə, əsgər psixoloji hazırlığın bu səviyyəsində uzun müddət qala bilməz.

Buna görə də əsgər üçün çox vacibdir ki, döyüş qabağı özündə və yoldaşlarında orta səviyyəni saxlasın. Döyüşün gedişatında isə psixoloji hazırlığın yüksək səviyyəsi qoşulmalıdır.

Döyüş təlimi prosesində hər bir əsgər öz döyüş və psixoloji hazırlığını təkmilləşdirməlidir. Döyüşə hazırlığın faydalı vasitələrindən biri kimi əsgərin öz hərəkətlərinin ardıcıllığını əvvəlcə səhv etmədən asta-asta, getdikcə sürətini artıraraq ürəyində deməsi məsləhət görülür. Əsgər şəraitə fikrən o qədər öyrəşir ki, özündən asılı olmayaraq hərəkət etməyə başlayır. Bu isə düşüncə ilə davranış arasında möhkəm əlaqənin yaranması deməkdir.

Dərhal başlanacaq döyüş əməliyyatlarına psixoloji hazırlığın saxlanılması üçün psixoloji özünütənzimləmə üsullarından istifadə oluna bilər.

Belə ki, dəqiqədə 140-150 addımlıq gəzinti gümrah əhval-ruhiyyə yaradır. Addımın astadan sürətliyə və əksinə doğru növbə ilə dəyişməsi isə diqqətin toplanmasına və artmasına səbəb olur. Yuxu ilə mübarizə aparmaq üçün əl dərisinin çimdiklənməsi, başın adamın özü tərəfindən massaj edilməsi və insanın aktivliyini artıran digər hərəkətlər geniş tətbiq olunur. Yuxulama insanda yorğunluğun, psixi və fiziki taqətsizliyin səbəbi olduğuna görə döyüşə psixoloji hazırlığın daxili düşməni sayılır.

### Döyüşə psixoloji hazırlığın əsas üsulları

Döyüşə psixoloji hazırlığın saxlanılması üçün özünütənzimləmənin əsas üsulları aşağıdakılardır:

- özünəinam və özünətəlqin;
- öz təxəyyülünü idarəetmə;
- nəfəs almanı və əzələləri tonusda saxlamaq.

Özünəinam - əsgərin hazırlığını yüksək səviyyədə saxlamağın vacibliyini özünə sübut etməsidir. Döyüş növbətçiliyini, qarovul xidmətini çəkən və yaxud digər döyüş tapşırığını yerinə yetirən hər bir əsgər onu yayındıran fikirlərin, istəklərin yaranması nəticəsində sayıqlığını itirməsinin nə cür dəhşətli hadisələr, nəticələr törədə biləcəyini aydın təsəvvürünə gətirməlidir. Bu yerdə Nizamnamələrin tələblərini, rəislərin xəbərdarlıqlarını, xidmətin ibrətamiz nümunələrini mütləq yada salmaq lazımdır.

Özünətəlqin - özünəinam kimi, əsgərin əsas təsir vasitəsi olaraq sözdən istifadə etməsilə şüurlu şəkildə əldə olunur. Özünətəlqin insanın özünə və imkanlarına olan inamın gücünə onun psixi vəziyyətini dəyişə bilər. Məsələn, gecə xidmət çəkən əsgər yuxuluqla oyaqlıq arasında olduğu üçün bəzi hallarda sanki tormozlanmış vəziyyətə düşür. Əsgərin psixikasının məhz bu vəziyyəti istənilən özünətəlqinə daha həssas olur. Ona görə də yuxulamağa və yaxud rahatlıq tapmağa olan ən kiçik cəhd belə yerindəcə dəf olunmalı və rədd edilməlidir. Əks təqdirdə şərait faciə ilə nəticələnə bilər.

Sayıqlığın itirilməsi çox ağır nəticələrə səbəb olur. Buna görə də əsgərlərdə gümrahlığın və aktivliyin saxlanılması üçün hərbi psixoloqlar çox dəqiq və qısa özünü təlimat forması tövsiyə edirlər. Yuxusu gələn, taqətdən düşən, sayıqlığını itirən əsgər bu ifadələri tez-tez işlətməlidir: "Mən diqqətimi toplayıram", "Mən sakitəm və özümə inanıram", "Mən öz davranışımı və vəziyyəti tam nəzarətdə saxlayıram".

Bu özünü təlimatlar ehtiyac duyulan vəziyyətin məxsusi modellərini təsvir edirlər. Əsgərin qabaqcadan hazırladığı sözlü düsturlar dəfələrlə təkrar etmə yolu ilə şüuraltına yerləşdirilir və yubatmadan onun vəziyyətini müəyyən etməyə başlayır.

Özünətəlqin zamanı bəzi qaydalara riayət etmək vacibdir:

- özünətəlqin düsturlarını 5-6 dəfə ürəyinizdə təkrar etməli, onun məzmununa diqqət yetirməli və ehtiyac duyulan vəziyyəti təsəvvür etmək lazımdır;
- sözlü düsturlar qısa, aydın olmalı və konkret şəraitdə onları yerinə yetirmək imkanları şübhə doğurmamalıdır. Burada heç bir özünütənqidə yol vermək olmaz. Yalnız öz qüvvələrinizə tam inam təxirə salınmaz nəticələr verə bilir;
- sözlü düsturlar yalnız təsdiqedici formada işlənməli, yəni, inkaredici ifadələrə yol verilməməlidir. Məsələn: "Mən yatmaq istəmirəm" özünətəlqini əks təsir verə bilər. Çünki "istəyirəm" əvəzinə deyilən "istəmirəm" ifadəsindəki "yi"-ni əvəzləyən "mi" inkar şəkilçisi adətən şüuraltında nəzərə çarpmır. Bu cür hallarda yuxunu xatırlamaq ümumən olmaz. Əksinə, demək lazımdır ki: "Mən gümrah və çalışqanam" və yaxud "Mən yatmaq istəmirəm" ifadəsinin əvəzinə "Mən gümraham" ifadəsini işlətmək lazımdır.

Təxəyyülün (fantaziyanın) idarə edilməsi isə özünətəlqinin sözlü düsturlarının təsirini əhəmiyyətli dərəcədə artıra bilir. Döyüş postunda təxəyyülünüzü işlətməklə, öz fəaliyyətinizin arzuolunan nəticəsinin obrazını yaratmaq mümkündür. Lazımdır ki, sözlü obrazların məzmununu emosiyalarında canlandırasan. Özünüzə "Mən gümraham" ifadəsini təlqin edərkən, səhər tezdən dan şehinin, təravətinin bədəninizi necə üşütməsini, əzələlərinizin necə gərilməsini təsəvvürünüzə gətirin. Siz o halı hiss etməyə çalışsanız, təsirini həmin an görəcəksiniz. Hərəkətin nümunəsini daha aydın təsəvvürünüzə gətirməklə, sizə özünüzü etalona (ideal döyüşçü, hərəkətlərin qüsursuz icrası) bənzətmək məsləhət görülür. Yəni, özünüzü "ən sayıq döyüşçü" rolunda hiss etməyiniz üçün onun ideal hərəkətlərini təsəvvürünüzə gətirin və yamsılama prinsipinə uyğun təkrar edin. "Mən ən sərrast atıcıyam", "Mən ən sayıq kəşfiyyatçıyam" kimi özünətəlqinlər müvafiq idealları, nümunələri təsəvvürə gətirməklə əsgərin əsl atıcı, kəşfiyyatçı obrazına çevrilməsinə kömək edir. Təxəyyülünüzü idarə etməklə döyüş fəaliyyətinin bu və ya digər nəticələrini, postda mümkün olan müxtəlif vəziyyətlərin inkişafını daima beyində "hərlətmək" (üzərində fikirləşmək) olar.

Məsələn: "Əgər divarın o üzündə düşmən varsa" deməli, dönməmişdən qabaq divardan 2-3 metr aralanmalı və fikrimi toplamalıyam. Bu cür fəndlər döyüşdə əlverişsiz nəticələri (arzuolunmaz sonluqları) qabaqlamaqla gözlənilməz hallara hazır olmaq imkanları verir. Yaxşı olardı ki, qabaqcadan ekstremal şəraitlərdə mümkün hərəkətlərin planı qurulsun və beyninizdə fikrən "icra edilsin".

Diqqətin idarə olunması təxəyyüllə sıx əlaqəlidir. Diqqətin hansı səmtə yönəlməsi onun sayıqlığına güclü təsir göstərir. Şüurlu nəzarətdən kənarda olan diqqətin döyüş tapşırığı ilə heç bir əlaqəsi olmayan obyektə keçirilməsi insanı yayındıra bilir. Bu isə insan psixikasının daha bir sirridir. Əgər ona məhəl qoymasaq daha ağır nəticələr qazanarıq. Köhnə bir fəndi misal gətirək. Düşmən qarovulçunu, saatdarı yayındırmaq məqsədilə kənara bir daş atır və qəfildən onun gözləmədiyi yerdən üstünə tullanır. Belə olan hallarda əsgər üçün vacibdir ki, qəfildən güclü qıcıqlandırıcı (təhlükəli səs, ekranın sönməsi, posta yaxın insan və yaxud heyvan) peyda olduqda bütün diqqətini yalnız bu obyekt üzərində saxlamasın. Eyni vaxtda daha əsas ola biləcək digər istiqamətləri də müşahidə etsin. Bunun üçün isə qabaqcadan diqqətin ən təhlükəli istiqamətlərin hər birinə növbə ilə keçirilməsi planı tərtib olunmalıdır. Yalnız bu qaydalara riayət etməklə şərait üzərində nəzarəti saxlamaq mümkündür. Döyüş şəraitində isə diqqəti döyüş tapşırığına aidiyyəti olan obyektlər üzərində saxlamaqla, ikinci dərəcəli qıcıqlara yayınmamaq tövsiyə olunur.

Nəfəsalmanın idarə olunması və əzələlərin tonusda saxlanılması sırf psixoloji fənd sayılmır. Lakin nəfəsalmanın dərinliyi və tezliyi, bədən əzələlərinin gərilmə dərəcəsi əsgərin döyüş şəraitindəki psixi vəziyyətinə əhəmiyyətli dərəcədə təsir edir. Əsəb gərginliyinin götürülməsi üçün sakitləşdirici nəfəsalma fəndi təklif olunur. Dərindən nəfəsinizi alır, mümkün qədər nəfəsinizi saxlayıb və bacardığınız qədər asta sürətlə buraxırsınız. Psixi halınızı sakitləşdirmək üçün sizə bu fəndi 5-7 dəfə təkrar etmək lazımdır. Bundan sonra düşməni uzunmüddətli müşahidə etmək üçün zehniniz açılacaq, iradəniz səfərbər olunacaq və əzələlərinizdə təzə qüvvə əmələ gələcəkdir.

Əzələ gərginliyi əsəb fəallığını xeyli dərəcədə şərtləndirir və deməli, əsgərdə səfərbər olmaq hissinin və gümrahlığın yaranmasına səbəb olur. Əzələnin boşaldılması isə əksinə, əsgərin psixikasına sakitləşdirici və tormozlandırıcı təsir göstərir. Ona görə də döyüşü gözləmə vaxtı bədən əzələlərini gərilmiş və elastik vəziyyətdə saxlamaq lazımdır. İsidilmiş aktiv əzələlər əsgərin döyüşə psixoloji hazırlığını yüksəldir.

Beləliklə, döyüş təlimi əsgərə hərbi biliklər qazanmaq, özündə döyüş səriştəsi və bacarıqlarını formalaşdırmaq imkanı verir. Bu isə özünəinamın əsasıdır. Psixoloji hazırlıq təlimləri isə onda döyüş fəaliyyətlərinə psixoloji cəhətdən dərhal başlamaq qabiliyyəti yaradır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Ovqat*

# Vətənin əsgəriyik

*Tovuz hadisələri xalqımızın və ordumuzun döyüş ruhunun necə yüksək olduğunu bir daha göstərdi. Qısa vaxt ərzində xalq döyüşə səfərbər oldu. Bu işdə kütləvi informasiya vasitələrinin də rolu böyükdü. Zabit və əsgərlərimizin savaşlarda göstərdiyi igidlik və qəhrəmanlıqlar, şəhidlərin ehtiram dolu anlarla dəfni, eləcə də döyüş səhnələri kifayət qədər geniş və operativ işıqlandırıldı. Bütün bunlar isə gənclərimizin döyüş ruhunu daha da yüksəltdi. İnam hissi ilə demək olar ki, bu ruh heç vaxt zirvələrdən enməyəcək. Xalqımız işğal edilən torpaqlarını qəsbkarlardan azad etməyə həmişə hazırdır.*



Son günlər baş verən hadisələr bir daha göstərdi ki, gənclərimiz Vətən, torpaq və şərəf uğrunda döyüşməyə, vuruşmağa hazırdırlar. Onlar hər an Ali Baş Komandanın döyüş əmri ilə döyüşlərə atılacaqlar. Hünər və cəsarətləri ilə erməni işğalçılarına qalib gələcəklər, Qarabağın qəsbkarlardan azad edilməsi naminə həmişə öndə vuruşacaqlar. Bu döyüşlərdə misilsiz qəhrəmanlıqlar göstərəcəklər. Qəhrəmanlıqları ilə adlarını tarixin səhifələrinə böyük hərflərlə yazacaqlar.

Tovuz istiqamətindəki döyüşlərdə cəsur zabit və əsgərlərimiz erməni işğalçılarının hücumlarını dəf edərkən böyük hünər və rəşadət nümayiş etdirdilər. Hər qarış torpaq uğrunda qorxmadan, yarım addım belə geri atmadan vuruşdular. Onlar qələbəmiz naminə vuruşdular, Qarabağımız naminə vuruşdular, Azərbaycanın bütövlüyü və müstəqilliyi naminə vuruşdular, Hərbi andlarına sadiq qalaraq vuruşdular, yurdun müdafiəsi naminə vuruşdular, Ali Baş Komandanın döyüş tapşırığını yerinə yetirərək vuruşdular, ailəsinin, millətinin şərəfi, namusu uğrunda vuruşdular. Keçmişimiz və gələcəyimiz naminə vuruşdular. Bütöv Azərbaycan uğrunda vuruşdular. Vuruşdular ki, erməni qəsbkarlarını məhv etsinlər, daşnakların hücumlarını birdəfəlik dayandırsınlar. Dayandırdılar da! Zabit və əsgərlərimizin göstərdikləri qəhrəmanlıq və hünər hədər getmədi. İşğalçıların hücumları qətiyyətlə dəf edildi. Ermənilər bu savaşda yüzlərlə canlı qüvvəsini, neçə-neçə zirehli texnikasını, artilleriya qurğularını itirdi. Bu savaş göstərdi ki, Azərbaycan Ordusunun zabit və əsgərləri iştirak etdikləri təlimlərdə hərbi biliklərə, döyüşdə qalib gəlməyin sirlərinə dərindən yiyələniblər. Zabit və əsgərlərimiz bu döyüşlərdə düşmənin atəş nöqtələrini dəqiq zərbə ilə məhv etməklə ən müasir silahların taktiki-texniki xüsusiyyətlərini dərindən mənimsədiklərini bir daha göstərdilər. Odumuzun hissələri göstərdilər ki, onlar erməni qəsbkarlarından qat-qat güclü və qüdrətlidirlər. Qələbə qazanmağa qadirdirlər, düşməni məhv etməyə hər an hazırdırlar.

Görünür ki, erməni qəsbkarları hücumlarını əvvəlki illərin xam xəyalları üzərində qurmuşdular. Ordumuzun hissələri elə ilk həmlədən dəqiq atəş zərbələri ilə yağıların qarşısına keçilməz sədd çəkdilər, düşmənin qarşısını qətiyyətlə aldılar. Düşmən dəfələrlə manevr etməyə cəhd göstərsə də, hər dəfə məğlubiyyətə uğradı, murdar niyyətini həyata keçirə bilmədi. Yağılar fikirləşirdilər ki, döyüşçülərimiz müharibənin ilk illərində olduğu kimi qarşılarında duruş gətirə bilməyəcəklər. Amma hər şey tərsinə oldu. Düşmənin iyrənc planları öz başlarında çatladı. Bu cümlələri yazanda bir anlıq yadıma düşdü ki, heç əvvəlki illərdə də erməni qəsbkarları bu istiqamətdə heç bir uğur qazana bilməmişdilər. Birinci Qarabağ müharibəsində də zabit və əsgərlərimiz indiki kimi torpaqlarımızın keşiyində ayıq-sayıq dayanaraq yurdumuzu göz-bəbəkləri kimi qorumuşdular. Döyüşlərdə böyük hünər və rəşadət göstərmişdilər. Ordumuzun bugünkü zabit və əsgərləri sələflərinin qəhrəmanlığını yüzqat, minqat təkrar etdilər.

Böyük sərkərdələr deyiblər ki, döyüş itkisiz olmur, qələbə qurban tələb edir. Təəssüflər olsun ki, Tovuz istiqamətindəki döyüşlərdə də itkilərimiz oldu. Bu itkilər ürəyimizi dağladı, qəlbimizi göyüm-göyüm göynətdi. Vətəni canından da çox sevən oğullar şəhid oldular, amma mövqelərdən bir addım da olsun geri çəkilmədilər. Cəsarət, hünər və qəhrəmanlıqları ilə düşmənə meydan oxudular, tarix yazdılar. Bu tarixi adi mürəkkəblə deyil, qanları ilə yazdılar. Qanla yazılan tarix isə heç vaxt pozulmur, əbədi-əzəli yaşayır. Gələcək nəsillər üçün şərəfli bir örnək, fəxr ediləsi bir nümunə olur. Tovuz istiqamətindəki döyüşlərdə şəhid olan zabit və əsgərlərimizin qəhrəmanlığı daim ehtiramla xatırlanacaq, hörmətlə yad ediləcək.

Son döyüşlərdə şəhid olanların sırasında general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev kimi cəsur zabilərtimiz də var idi. Generalın əsgərlərlə bir səngərdə vuruşması və şəhid olması çox qürurverici-dir. Dünyadakı döyüş təcrübəsindən görmüş və oxumuşuq ki, yüksək rütbəli zabitlər, generallar qərargahda oturub əmr və göstərişlər verirlər. Amma Tovuz istiqamətindəki döyüşlərdə biz bunun əksini gördük. Gördük ki, Azərbaycan generalları tamam fərqlidir, kimlərəsə bənzəmir, bənzəmək istəmirlər. O, əsgərinin arxasında gizlənmir, onunla yanaşı döyüşür, onunla çiyin-çiyinə vuruşur. Azərbaycan generalının ən çətin məqamda, ən kritik vəziyyətdə əsgərinin yanında olmasının özü də böyük bir qəhrəmanlıq nümunəsidir. Bu, Azərbaycan əsgərinin, Azərbaycan generalının torpağına, Vətəninə olan sevgisinin birliyidir. Hamı Vətənin əsgəridir.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Hərbi hissədə ideoloji işə həsr edilən növbəti tədbir keçirilib



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çıxışlarında orduda ideoloji işin gücləndirilməsi, vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində qarşıya qoyduğu vəzifələrdən irəli gələn tapşırıqların icrası ilə bağlı "N" hərbi hissəsində növbəti tədbir keçirilib.

Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Şəxsi heyətə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin çıxışını əks etdirən videoçarx və Azərbaycanın dövlətçilik, hərb tarixindən bəhs edən tarixi xronika təqdim olunub.

Tədbirdə həmçinin "Əsgərə məktub" layihəsi çərçivəsində əsgərlər ailələrinə məktub yazaraq öz arzularını çatdırıblar.



Azərbaycanın Əməkdar artisti Ağalar Bayramovun da iştirak etdiyi tədbirdə Vətənə, Azərbaycan bayrağına, şəhidlərə həsr edilən şeirlər səsləndirilib, H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin kollektivi konsert proqramları ilə çıxış edib.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Nazir: Türkiyədə "İldırım-5" antiterror əməliyyatı keçirilir



Türkiyənin təhlükəsizlik qüvvələri ölkənin Amanos dağ silsiləsində "İldırım-5" adlı növbəti antiterror əməliyyatına başlayıb.

Bu barədə Daxili İşlər naziri Süleyman Soylu məlumat verib. Nazir bildirib ki, "İldırım-5" əməliyyatına 1448 nəfərlik heyət qatılıb.

Qeyd edək ki, Kahramanmaraş vilayətində yerləşən Sır su anbarından başlayan Amanos (Nur) dağ silsiləsi Hatay vilayətinə doğru 175 kilometrlik ərazini əhatə edir. Bu bölgə də PKK terrorçularının gizləndikləri ərazilərdən hesab olunur.

## Cənubi Sudanda hərbçilərlə yerli sakinlər arasında baş verən toqquşmalarda 127 nəfər həlak olub



Cənubi Sudanın şimalında hərbçilərlə yerli sakinlər arasında artıq iki gündür ki, davam edən toqquşmalar nəticəsində ən azı 127 nəfər həlak olub.

France-Presse informasiya agentliyi xəbər verir ki, hərbçilər regionda yerləşən Varab ştatında əhalidəki odlu silahları müsadirə etmək üçün hökumət proqramı çərçivəsində əməliyyat keçirir.

Cənubi Sudan Silahlı Qüvvələrinin rəsmi nümayəndəsi Lula Ruay Koanqanın məlumatına görə, həlak olanların arasında 82 dinc sakin və 45 hərbçi var.

"Tamazuj" qəzeti isə öz növbəsində yerli sakinlər və hərbçilər arasında toqquşmaya bazarda baş verən insidentin səbəb olduğunu yazır. Belə ki, baş geyimini çıxarması barədə əmrə tabe olmayan gəncin hərbçilər tərəfindən qətlə yetirilməsindən sonra yerli sakinlər kazarmalara hücum edib.

İnsidentlə bağlı təhqiqat başlayıb.

## İranda casus şəbəkəsi aşkar edilib

İranın Ali Məhkəməsi casusluqda ittiham edilən iki nəfəri 10 il müddətinə azadlıqdan məhrum edib.

Bu barədə Ali Məhkəmənin mətbuat katibi Qulamhüseyn İslami bildirib.

O qeyd edib ki, xüsusi xidmət orqanlarının həyata keçirdiyi əməliyyat nəticəsində İranın Xarici İşlər və Sənaye nazirliklərində, eləcə də Atom Enerjisi üzrə Milli Agentlikdə çalışan 5 nəfər həbs edilib. Onlar müxtəlif sahələri əhatə edən məxfi məlumatları toplayaraq düşmən dövlətlərin xüsusi xidmət orqanlarına ötürürmüşlər.

On il müddətinə azadlıqdan məhrum edilən Məsud Müseyib və Şəhram Şirxani gəncləri casusluğa cəlb edərək onlardan faydalanırmışlar.

Digər 3 nəfərin məhkəmə prosesi davam edir.

## İraqın şimalında keçirilən antiterror əməliyyatları zamanı beş terrorçu zərərsizləşdirilib



Türkiyə Silahlı Qüvvələrinin İraqın şimalında "Pəncə-Qaplan" antiterror əməliyyatlarını keçirdiyi ərazidə beş terrorçu məhv edilib.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumatda qeyd olunub ki, terrorçulardan ikisi İraqın Haftanin, üçü isə Avaşin bölgələrində zərərsizləşdirilib.

Əməliyyatlar davam etdirilir.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

*Ordunun nizam-intizamı sıradan başlayır. Bu gün ordumuzun istənilən bölməsində mütəmadi olaraq yüksək səviyyədə sıra hazırlığı məşğələləri təşkil olunur. Hərbi xidmətə gələn gənclər bu məşğələlərdə həvəslə iştirak edir və sıra hazırlığının elementlərini maraqla öyrənirlər. Dərslər zamanı gənc əsgərlərə sıra intizamı ilə yanaşı, sıranın mənəvi dəyərləri də aşılanır.*

*Sıra hazırlığı*

# Hərbi xidmət həm də həyat məktəbidir



"N" hərbi hissəsində sıra hazırlığı məşğələsinin təşkili ilə yaxından tanış olduq. Əsgərlərin sıra addımlarından bəlli idi ki, bölmənin sıra hazırlığı mütəmadi olaraq plan üzrə təşkil olunur. Məşğələ rəhbəri leytenant Sahil Əbülfəzli 2015-ci ildə Heydər Əliyev adına Hərbi Liseyi, 2019-cu ildə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. O, günü-gündən inkişaf edən orduda xidmət etməklə fəxr hissi keçirir və inanır ki, qısa zamanda Lələtəpədə dalğalanan bayrağımız Şuşada, Xankəndidə də dalğalanacaq. Hər an Vətən uğrunda döyüşməyə hazır olan gənc zabit söhbət zamanı əsgərlərin sıra hazırlığından razı qaldığını qeyd etdi. "Biz günün nizam qaydasına uyğun olaraq mütəmadi sıra hazırlığı məşğələləri keçirik. Asudə vaxtdan səmərəli istifadə edərək özümüz də idmanla məşğul oluruq. Əsgərlərin problemləri ilə maraqlanır, fərdi söhbətlər aparırıq. Bütün idman normativləri vaxtında verilir. Bölmədə olan hər bir əsgər vətənpərvərdir. Dövlətini, xalqını çox sevir", - leytenant S.Əbülfəzli bildirdi. - Bu şərəfli peşəni öz arzumla, istəyimlə seçmişəm. Bir gənc olaraq qürurluyam ki, şanlı Azərbaycan Ordusunun zabitiyəm. Komandir kimi üzərimə düşən vəzifələrin öhdəsindən məsuliyyətlə gəlməyə çalışıram. Əsgərlərimə hərbi bilik, bacarıq və nizam-intizam öyrətmək üçün bütün biliklərimi səfərbər edirəm. Günün nizam qaydasına uyğun olaraq bu gün sıra məşğələsi günüdür. Əsgərlərin hər biri silahlı və silahsız sıra hərəkətlərini bacarıqla yerinə yetirirlər. Onların dərsə olan marağı və öyrənməyə olan həvəsi məni daha da ruhlandırır. Hər biri vətənpərvər gəncdir və nümunəvi xidmət edirlər.

Zabitlə söhbəti yekunlaşdırıb əsgərlərlə də kəlmələşdim. Onlar hərbi hissədə yaradılan şəraitdən və komandirlərindən razılıq bildirdilər. Əsgəri xidmətlərini uğurla başa vurmaqları üçün hər bir şərait yaradıldığını dedilər.

İlk olaraq əsgər Ziyadxan Hacıyev düşüncələrini bölüşdü. Hərbi xidmətin hər bir gənc üçün Vətən qarşısında övladlıq borcu olduğunu bildirdi.

"Əsgərlik həyat məktəbidir. Burada bir çox müsbət keyfiyyətlərə və vərdişlərə yiyələnirik. Keçirilən məşğələlərdə hərbin sirlərini, silahlardan istifadə etməyi, döyüş taktikasını və digər bilikləri öyrənirik. Digər dərslər kimi sıra hazırlığında da həvəslə iştirak edirik. Yaxşı bilirik ki, hərbi xidmət nizam və intizam üzərində qurulub. Nizam-intizam isə sıradan başlanır. Hələ hərbi xidmətə gəldiyimiz ilk gündən komandirlərimiz bunları bizə demişdi. Gündəlik bütün fəaliyyətlərimiz sıra ilə tənzimlənir. Hər birimiz əlimizdən gəldiyi qədər çalışırıq ki, nizam-intizamlı və bacarıqlı əsgərlər olaq, ordumuzun adına layiqli xidmət edək", - əsgər Z.Hacıyev dedi.

Əsgər Vaqif İsmayılov da hərbi xidmətdən ağızdolusu danışdı. Qoynunda boy atdığı Vətəninə əsgər olmaqdan qürurlandığını dedi. "Hər bir gənc kimi mən də sevinirəm ki, əsgərəm - Vətənin müdafiəçisiyəm. Üzərimizə düşən şərəfli vəzifələrin məsuliyyətini yaxşı dərk edirik. Bütün silahdaşlarım kimi intizamlı və nümunəvi əsgər olmağı qarşıma məqsəd qoymuşam. Yaxşı dərk edirəm ki, bu sıralarda Vətənimizin igid oğulları Mübarizlər, Poladlar, Raquflar, Samidlər, Çingizlər... dayanıb. Biz həmin qəhrəmanların davamçılarıyıq".

Əsgərlərin qətiyyətli sözləri bir daha deməyə əsas verir ki, Azərbaycan Ordusunda dəmir nizam-intizam var. Ordumuzun istənilən bölməsində Vətənə sevgi, dövlət və dövlətçiliyə sədaqət ruhunda xidmət edən əsgərlərimiz tezliklə xalqımıza Böyük Qələbənin sevincini yaşadacaqlar!

**Kursant**
**Əli ABIYEV**

*Fiziki hazırlıq*

# "Həm mənəvi, həm də fiziki cəhətdən güclüyük"



Gündən-günə daha da peşəkarlaşan ordumuzun şəxsi heyətinin hərtərəfli hazırlıqlı olması mütləq şərtlərdən biridir. Hərbi qulluqçuların döyüş hazırlığı onların maddi-texniki təminatı, sıra hazırlığı ilə yanaşı, fiziki göstəricilərinin yüksək səviyyədə olmasından da bilavasitə asılıdır. Buna görə də ordumuzda fiziki hazırlığa mühüm yer ayrılır. Bu gün hər bir əsgərin fiziki göstəricisini təkmilləşdirmək məqsədilə bütün bölmələrdə müasir avadanlıqlarla təchiz olunmuş idman şəhərcikləri, trenajor otaqları fəaliyyət göstərir. Bir sözlə, şəxsi heyətin bütün təminatları kimi fiziki hazırlığı üçün də hər bir şərait yaradılır.

Belə bir şəraitlə "N" hərbi hissəsində şəxsi heyətin idman məşğələsi zamanı tanış olduq. Əsgərlərin fiziki cəhətdən nə dərəcədə hazırlıqlı olduqları ilk baxışda bəlli olur. Qrup rəhbəri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Vaqif Həsənov tabeliyində olan əsgərlərlə idman meydançasında idi. V.Həsənov uzun müddətdir ki, ordumuzun sıralarında nümunəvi xidmət aparır. O bildirdi ki, əsgərlərin fiziki hazırlığının yüksək səviyyədə olması həm ordumuzda keçirilən idman məşğələlərindən, həm də onların xidmətə çağırılmamışdan öncə müxtəlif döyüş və idman növlərinə olan maraqlarından asılıdır. "Əsgər gərək həm mənəvi, həm də fiziki cəhətdən güclü olsun. Biz əlimizdən gələni edirik ki, bütün şəxsi heyətə idmanı sevdirək və onlar idman normativlərini asanlıqla yerinə yetirə bilsinlər. Bu onlara gələcəkdə verilən döyüş tapşırıqlarını lazımi səviyyədə icra etməkdə yardımçı olacaq", - V.Həsənov dedi.



Əsgər Sabir Nurməmmədli hərbi xidmətə çağırılmamışdan qabaq güləşin yunan-Roma növü ilə məşğul olub. O, yeniyetmələr arasında birinciliklərin qalibi adını qazanıb. İdmançı olmağın hərbi xidmətin ilk günlərindən ona çox kömək olduğunu vurğulayan Sabir, həmyaşıdlarını mütəmadi olaraq idmanla məşğul olmağa çağırdı.

Öyrənirik ki, əsgər Surab Hacıseyidxan da çağırışaqədərki həyatında idmanla məşğul olub. O, 2017-ci ildə yeniyetmələr arasında boks üzrə Azərbaycan birinciliyini qazanıb, 2018-2019-cu illərdə gənclər və yeniyetmələr arasında keçirilən beynəlxalq boks turnirlərinin qalibi olub. Boks üzrə millimizin üzvü olan Surab idmana olan sevgisinin atası, Qarabağ veteranı, Mirzə kişidən gəldiyini bildirdi. "Atam deyirdi ki, əgər Vətənini, millətini qorumaq istəyirsənsə, nizam-intizamlı, dözümlü və iradəli, həm də fiziki cəhətdən güclü olmalısan".

İdman meydançasında öz fiziki göstəricilərini yüksəltməklə məşğul olan Tural Aşıqov, Rasif Məmmədov və digər əsgərlərimizin tələb olunan normativləri asanlıqla yerinə yetirmələri onu göstərirdi ki, ordumuz işğalda olan torpaqlarımızın azad olunması uğrunda döyüşə hər zaman hazırdırlar.

**Kursant**
**İbrahim MƏMMƏDBƏYOV**

# İdman

## "Qarabağ" "Sabah"ın qapısından iki cavabsız top keçirib



Ölkəmizi Çempionlar Liqasında təmsil edəcək "Qarabağ" növbəti yoxlama oyununu keçirib.

Ağdam klubunun komandası "Azersun Arena"da "Sabah"la qarşılaşıb. Qapalı görüşdə "Qarabağ" 2 cavabsız qolla qalib gəlib. Bu komandalar arasında iyulun 25-də Qəbələdə keçirilmiş oyunda "Sabah" 2:1 hesablı qələbə qazanmışdı.

Qeyd edək ki, "Sabah" toplanış çərçivəsində, həmçinin "Sumqayıt"a (1:0), "Neftçi"yə (5:2), "Qəbələ"yə (2:0) qalib gəlib. "Qarabağ" isə iki dəfə "Keşlə"ni (3:1, 4:0), bir dəfə də "Neftçi"ni (1:0) məğlub edib.

## "Qarabağ"-"Sileks" matçını idarə edəcək hakimlər müəyyənləşib



UEFA Çempionlar Liqasının birinci təsnifat mərhələsində keçiriləcək "Qarabağ"-"Sileks" oyununun hakimləri müəyyənləşib.

Görüşü Ukraynadan olan hakimlər briqadası idarə edəcək. Matçın baş hakimi Yaroslav Kozık olacaq. Ona yan xətt hakimləri Viktor Nijnik və Vladimir Korotin kömək edəcəklər. Dördüncü hakim funksiyasını Anatoli Abdula yerinə yetirəcək.

Qeyd edək ki, avqustun 18-də Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək "Qarabağ"-"Sileks" matçı saat 20:00-da start götürəcək.

## Həbib Nurməhəmmədov Castin Getji ilə qarşılaşmasının ilin ən yaxşı döyüşü olacağına ümid edir



Mütləq Döyüş Çempionatının (UFC) yüngül çəkidə çempionu rusiyalı Həbib Nurməhəmmədov amerikalı döyüşçü Castin Getji ilə qarşılaşmasının 2020-ci ilin ən yaxşı döyüşü olacağına ümid etdiyini bildirib.

Bu barədə ESPN kanalının "Instagram" səhifəsində məlumat verilib. H.Nurməhəmmədov və C.Getji arasında döyüş oktyabrın 24-də təşkil olunacaq.

H.Nurməhəmmədov sonuncu döyüşünü 2019-cu ilin sentyabrında amerikalı Dastin Poryeyə qarşı keçirib və titulunu qoruyub. Yüngül çəkidə UFC-nin müvəqqəti çempionu C.Getji bu ilin mayında amerikalı Toni Ferqyusonu texniki nokautla məğlub edib.

## Azərbaycan Premyer Liqasının yeni mövsümünün püşkü atılıb

Avqustun 12-də AFFA-nın inzibati binasında futbol üzrə Azərbaycan çempionatının 2020-2021-ci il mövsümünün püşkü atılıb.

Tədbir klub və KİV nümayəndələri üçün qapalı olub. Ötən mövsüm olduğu kimi, çempionat eyni 8 komandanın iştirakı ilə keçiriləcək. Premyer Liqanın birinci turunda "Qarabağ"-"Sabah", "Neftçi"-"Səbail", "Sumqayıt"-"Keşlə" və "Qəbələ"-"Zirə" görüşləri keçiriləcək.

Qeyd edək ki, yeni mövsümə avqustun 21-də start veriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Ələsgərov Vüsal Əkbər oğluna və kiçik çavuş Məmmədov Azər Qəhrəman oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Oruc MUSTAFAYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 483
Nüsxə 3980